**Cəfərov, M**. Hərbçi atanın zabit oğlu / Müşfiq Cəfərov // Xalq qəzeti. - 2025. - 7 oktyabr. - **№ 215**. – S. 13.

**Haqq-ədalət savaşımızda bizə qələbə sevinci bəxş edən şəhidlərimizin, qazilərimizin qəhrəmanlığı gənc nəsil üçün əbədi miras qalan mənəvi dəyərimizdir. Məhz bu mirasa görə minlərlə hərbçimiz orden və medallarla təltif edilmişdir. Onlardan biri də şəhid Ruslan Qəhrəmanovdur.**

Ruslan 1988-ci il oktyabr ayının 6-da, Almaniyada, hərbçi ailəsində dünyaya göz açıb. Atası Mehman Qəhrəmanov sovet silahlı qüvvələrində qulluq edib. Birinci Qarabağ müharibəsi başlananda doğma yurdu Azərbaycanın müdafiəsinə qoşulub, hərbi təcrübəsini gənclərlə bölüşüb. Müharibə qazisi Vətənə xidməti ilə fəxr edib. Elə oğlunu da bu ruhda tərbiyə edib.

Şəmkirin Keçili (indiki Xuluf) kəndində böyüyüb başa çatmış Ruslan oradakı Rövşən İsmayılov adına 2 nömrəli orta məktəbdə 9-cu sinfə kimi təhsil alıb. Vətənə olan hədsiz sevgisi onu Cəmşid Naxçıvanski adına Hərbi Liseyə aparıb. Liseydən sonra ali hərbi məktəbə qəbul olub və leytenant kimi Vətənə xidmətə başlayıb.

2016-cı ildə Aprel döyüşlərinin iştirakçısı olan kapitan Ruslan Qəhrəmanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərə qatılıb.

Bir dostu ona “Sən general olacaqsan” demişdi. Döyüşlərdən öncə 2 qız və 1 oğul atası olduğuna işarə edərək “Çalış, şəhid olma, körpə balaların səni gözləyir”, – deyən dostuna Ruslanın cavabı isə “şəhid olmaqdan qorxan döyüşə getməz” – olub. “Mən ora elə şəhidlik üçün gedirəm”... Övladlarına isə cəbhəyə getməzdən öncə tapşırıbmış ki, mən şəhid olanda siz bayraqla öndə gedin, fəxrlə “Vətən sağ olsun!” – deyin. – “Gözüm arxada qalamayacaq, çünki ardımca oğlumun gəldiyini bilirəm”.

Döyüşlər öncəsi kəşfiyyat zamanı mühasirəyə alınırlar. XTQ kapitanı dostlarını xilas eləmək üçün maşından düşərək: “Siz gedin, mən sizi qoruyacam”, – deyir və snayper gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olur. Şəmkir rayonunun Keçili kəndində dəfn edilir. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında fərqlənmiş igidimiz hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Prezident İlham Əliyevin sərəncamlarına əsasən, Ruslan Qəhrəmanov ölümündən sonra “Azərbaycan bayrağı” ordeni, “Vətən uğrunda” və “Füzulinin azad olunmasına görə” medalları ilə təltif olunub.

Ruslana məxsus şəxsi materiallar Milli Azərbaycan Tarixi Muzeyinə təhvil verilib.